# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 235/1 30 oktyabr 2012-ci il

"Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"yə dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin müddəalarına uyğun olaraq Auditorlar Palatası Şurasının 2008-ci il 4 fevral tarixli 190/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"yə dəyişiklik edilməsi barədə hazırlanmış və Palatanın Keyfiyyətə nəzarət Komitəsinin sədri M.Abbasov tərəfindən təqdim edilən layihəni nəzərdən keçirərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"nin Keyfiyyətə nəzarət prosedurları II bölməsinin "Planlaşdırılmış yoxlamalar cari ilin iyun ayının 1-dən sonrakı dövr ərzində, plandankənar yoxlamalar isə bütün təqvim ili ərzində keçirilir." 2.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

2.5 "Planlaşdırılmış və plandankənar yoxlamalar bütün təqvim ili ərzində keçirilir."

2. "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"nin Keyfiyyətə nəzarət prosedurları II bölməsinin "İllik plan təsdiq olunduqdan sonra Palata Şurası 1 ay ərzində cari il üçün planlaşdırılmış yoxlamaları, nəzarət qruplarının rəhbərlərini və üzvlərini təyin edir." 2.7-ci bəndində "cari" sözü "növbəti" sözü ilə əvəz edilsin.

3. Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"nin müddəalarının vaxtında icrasını təmin etsinlər.

4. Palatanın Aparatına (Q.Bayramov) və Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**